*Uluslararası Turizm, İşletme, Ekonomi Dergisi*
*International Journal of Tourism, Economic and Business Sciences*
*E-ISSN: 2602-4411, 4(2): 33-44, 2020, www.ijtebs.org*

# ERMƏNİ İŞĞALI SONRASI QARABAĞDA TURİZMİN İNKİŞAFI MƏSƏLƏLƏRİ

Ali JABBAROV[1] Sevinj ABBASOVA[2] Haluk TANRIVERDİ[3]

[1] Nakhchivan University, Republic of Azerbaijan, https://orcid.org/0000-0001-9777-3664, ali.j@ndu.edu.az
[2] Nakhchivan State University, Republic of Azerbaijan, https://orcid.org/0000-0002-7529-909X, abbasova.s.z@mail.ru
[3] Istanbul University, Republic of Turkey, https://orcid.org/0000-0002-2716-0405, haluktanriverdi34@gmail.com

Sorumlu Yazar
E-mail: ali.j@ndu.edu.az

Geliş Tarihi: 07.10.2020
Kabul Tarihi:23.10.2020

**Xülasə**

Azərbaycan Respublikası Cənubi Qafqazdakı coğrafi mövqeyi, təbiəti və milli-mədəni müxtəlifliyi ilə həmişə turizm baxımından maraqlı destinasiya olub. Lakin XX əsrin sonları və XXI əsrin əvvələrində burada ermənilər tərəfindən törədilən separatçı-terrorist hərəkətlər bütün sosial-iqtisadi inkişafa, o cümlədən, turizmə də ciddi ziyan vurub. Bu məqalədə 1990-2020-ci illər ərzində Ermənistan Respublikası tərəfindən işğal olunmuş Azərbaycan Respublikasının Dağlıq Qarabağ və ona bağlı olan 7 inzibati ərazi vahidi ərazisində işğaldan sonrakı dövrdə turizmin inkişafı məsələləri araşdırılıb. Dağlıq Qarabağ hələ keçmiş SSRİ dövründə təkcə Azərbaycanda deyil, bütün Cənubi Qafqazda beynəlxalq əhəmiyyətli turizm mərkəzi olub. 2020-ci ilin sentyabr ayından başlayaraq Azərbaycan Ordusunun apardığı əks hücum əməliyyatı nəticəsində Dağlıq Qarabağın azad olunması gələcəkdə turizmin də inkişafı məslələrinə maraq yaradır. Bölgədə turizm infrastrukturunun yenidən bərpası və burada turizmin müxtəlif növlərinin inkişafı üçün mövcud olan perspektivlər bu məqalədə tədqiq olunub.

**Açar sözlər:** Turizm; Qarabağda Işğal Sonrası Turizm; Azərbaycan Respublikası, Ermənistan Işğalı

## ISSUES OF TOURISM DEVELOPMENT IN KARABAKH AFTER ARMENIAN OCCUPATION

**Abstract**

The Republic of Azerbaijan has always been an interesting destination in terms of tourism due to its geographical position, nature and national-cultural diversity in the South Caucasus. However, the separatist-terrorist acts committed by Armenians here in the late twentieth and early twenty-first centuries have seriously damaged all socio-economic development, including tourism. İn this article was studied the development of tourism in the post-occupation period in Nagorno-Karabakh and 7 adjacent administrative territorial units of the Republic of Azerbaijan occupied by the Republic of Armenia during 1990-2020. Nagorno-Karabakh was an internationally well-known tourist center not only in Azerbaijan, but in the entire South Caucasus during the former Soviet Union. The liberation of Nagorno-Karabakh as a result of a counter-offensive carried out by the Azerbaijani Army in September 2020 raises interest in the development of tourism in the future. This article discusses the reconstruction of tourism infrastructure in the region and the prospects for the development of various types of tourism here.

**Key words:** Tourism: Post-Occupation Tourism in Karabakh, Republic of Azerbaijan; Armenian Occupation

## ERMENİ İŞGALİ SONRASI KARABAĞ'DA TURIZMIN GELIŞIMI KONULARI

**Özet**

Azerbaycan Cumhuriyeti, Güney Kafkasya'daki coğrafi konumu, doğası ve ulusal-kültürel çeşitliliği nedeniyle turizm açısından her zaman ilginç bir destinasyon olmuştur. Ancak burada Ermenilerin yirminci yüzyılın sonlarında ve yirmi birinci yüzyılın başlarında işledikleri ayrılıkçı-terörist eylemler, turizm de dahil olmak üzere tüm sosyo-ekonomik kalkınmaya ciddi şekilde zarar vermiştir. Bu makale, Dağlık Karabağ'da ve 1990-2020'de Ermenistan Cumhuriyeti tarafından işgal edilen Azerbaycan Cumhuriyeti'nin 7 komşu idari bölgesel biriminde işgal sonrası dönemde turizmin gelişimini incelemektedir. Dağlık Karabağ, eski Sovyetler Birliği döneminde sadece Azerbaycan'da değil, tüm Güney Kafkasya'da uluslararası bir turizm merkeziydi. Azerbaycan Ordusu'nun Eylül 2020'de gerçekleştirdiği karşı saldırı sonucunda Dağlık Karabağ'ın kurtarılması, gelecekte turizmin gelişmesine yönelik ilgiyi artırmaktadır. Bu makale, bölgedeki turizm altyapısının rehabilitasyonunu ve burada çeşitli turizm türlerinin geliştirilme olasılıklarını incelemektedir.

**Anahtar Kelimeler:** Turizm, Karabağ'da işgal sonrası turizm, Azerbaycan Cumhuriyeti, Ermeni İşgali

## 1. TƏQDIMAT

10 noyabr 2020-ci il tarixdə işğalçı Ermənistanın təslim olması müqavilәsinə imza atması (https://en.president.az ) və Azərbaycanın tam qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi sonunda Cənubi-Qafqaz iqtisadiyyatının 60 faizinə malik olan Azərbaycan iqtisadiyyatının da Qarabağda nəyə nail olacağını bütün dünya maraqla gözləyir. 30 ilə yaxın bir müddətdə Ermənistanın işğalı altında olmuş Qarabağın azad edilməsi təkcə bu regionda deyil, bütün dünyada çox geniş rezonans yaratdı. Erməni hədəflərini gözündən vuran Türkiyə istehsalı ağıllı silah-sursatlar, (https://www.forbes.com  Şuşanı əlbəyaxa döyüşlə işğalçı əsgərlərdən təmizləyən Azərbaycan əsgərinin igidliy (https://neweasterneurope.eu ) və Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin siyasi uğurları dünya gündəminə oturdu. Artıq Azərbaycan qalib ölkədir.

Müharibə sonrası baş verən hadisələri indi bütün dünya maraqla izləyir. Məğlub Ermənistanda daxili vəziyyət getdikcə mürəkkəbləşərkən (https://news.sky.com ) azadlığa qovuşmuş Qarabağda həyata keçiriləcək hər yeni iqtisadi layihənin işğaldan sonrakı dövrdə daha geniş məzmunlu inkişafa səbəb olacağı gözlənilir. Bu layihələr bir tərəfdən Naxçıvan Muxtar Respublikasının birbaşa olaraq Azərbaycanın əsas hissəsinə çıxış yolunun açılması  (https://news.cgtn.com ) və bununla əlaqədar olaraq Böyük İpək Yolu (Frankfurt-İstanbul-Şanxay) ticarət dəhlizində (https://www.silkroadbriefing.com ) Qarabağın da çox mühüm mövqe qazanması, digər bir tərəfdən isə Azərbaycanda qeyri-neft sektoru və ixrac marşrutları üçün yeni perspektivlərin yaranması baxımından da əsas arqumentlər kimi gələcəkdə çox müzakirə olunacaq. Bunlarla yanaşı, işğal sonrası Qarabağda turizm mövzusunun aktual olduğunu da müxtəlif səviyyələrdəki çıxışlardan da izləməkdəyik.

Artıq işğaldan azad olunmuş rayonlarda dövlətin vacib idarəetmə strukturların fəaliyyətinin bərpa olunması, Suqovuşandakı turizm və hidroehtiyatların istifadəyə cəlb olunması, bu ərazilərdə başladılan yol-infrastruktur çalışmaları, Xudafərin ərazisindəki su anbarlarının hidroenerji və meliorasyia məqsədilə istifadəsi və Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Füzulidən Şuşaya 101 kilometrlik yolun çəkilməsi üçün vəsaitin ayrılması (https://president.az ) kimi sırf iqtisadi mahiyyətli tədbirlər gündəmə gəlməkdədir. Düşmənin tamamən Qarabağdan çəkilməsindən sonra bölgə iqtisadiyyatının dirçəldilməsi yaxın gələcəkdə bu torpağın yenidən bütün Cənubi-Qafqazın inkişaf edən mədəniyyət mərkəzi, məşhur turizm destinasyiası olacağını deməyə əsas verir.

## 2. Qarabağ: Tarix və Gerçəklik

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Qarabağ bölgəsi Azərbaycan xalqının etnogenezində, tarixində və mədəniyyətində mühüm rol oynamış bölgələrdən biridir. Təbii relyefinə görə iki hissədən - düzənlik və dağlıq (yuxarı) hissələrdən ibarət olan Qarabağ bölgəsi coğrafi cəhətdən 1923-1991-ci illərdə mövcud olmuş inzibati vahidin – keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) ərazisindən (4.400 kv.km) bir neçə dəfə böyükdür. Belə ki, 1920-ci ilin sonlarında bolşeviklər tərəfindən Ermənistana verilmiş Zəngəzur diyarı da tarixi Qarabağ vilayətinin qərb hissəsini təşkil edir.

Tarixi Qarabağ bölgəsi bəşər sivilizasiyasının təşəkkül tapdığı ərazilərdən biridir. Qarabağ ərazisində paleolit dövrünə aid Azıx, Tağlar, Zar mağara düşərgələri, eneolit dövrünə aid Çalağantəpə, Leylatəpə və s. abidələr, ilk tunc dövrünə aid Xankəndi, Üçoğlan, Göytəpə, Qarahacılı abidələri, orta tunc və son tunc dövrlərinə aid Üzərliktəpə, Xocalı, Qarabulaq abidələri, habelə antik dövrə və ilk orta əsrlərə aid Covurqala və digər çoxsaylı abidələr aşkar edilmişdir. 1960-cı ildə Azərbaycan arxeoloqları tərəfindən aşkar olunmuş Azıx mağarasında Quruçay mədəniyyəti, Aşel mədəniyyəti və Mustye mədəniyyəti dövründə yaşayış olduğu müəyyən edilmişdir. Azərbaycan arxeoloqlarının hələ Sovet dövründə aşkara çıxardıqları materiallar Qarabağ zonasının Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edir.

Yazılı mənbələr də Qarabağın əzəli Azərbaycan ərazisi olduğunu, tarixi saxtalaşdıran bəzi erməni müəlliflərin əksinə olaraq Qarabağın Qafqaz Albaniyasının tarixi ərazisi olduğunu və heç zaman Ermənistanın tərkib hissəsi olmadığını, onun əhalisinin isə yalnız çox sonralar sonralar erməniləşməyə məruz qaldığını təsdiq edir. Bunu Cənubi Qafqazın qədim tarixi ilə məşğul olan bir sıra obyektiv tədqiqatçılar, o cümlədən erməni əsilli İ. Orbeli, C. Yeremyan və başqaları da təsdiq edirlər. (Минорский, 1963, Орбели, 1963, Еремян, 1958).

Qarabağ e. ə. IV əsrdən – eramızın VIII əsrinin əvvəllərinədək Albanyanın, VIII-XII əsrlərdə Sacilər, Salarilər, Rəvvadilər dövlətlərinin, Səlcuqilər imperiyasının və Atabəylər (Eldənizlər) dövlətinin, XIII-XV əsrlərdə Elxanilər (Hülakilər), Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, 1501-1736-cı illərdə Səfəvilər dövlətinin, 1747-1821-ci illərdə isə Qarabağ xanlığının tərkibində olmuşdur ki, bu dövlətlərin hamısı tarixi Azərbaycan dövlətləridir.

Ərəb işğalları nəticəsində tarixi Albaniya dövlətinin süqutu VII-IX əsrlərdə Qarabağın tarixində və etnik tərkibində ciddi dəyişikliklərə gətirib çıxardı. VII əsrin sonlarında Azərbaycan Ərəb xilafətinin tərkibinə qatıldıqdan sonra ölkədə İslam dini sürətlə yayılmağa başlayır. Şimali Azərbaycanda İslam dininin ilk yayıldığı bölgələrdən biri də tarixi Qarabağ bölgəsi oldu. Azərbaycan əhalisinin əksəriyyətinin İslamı qəbul etməsi, Qarabağda, xüsusən onun düzən hissəsində memarlığın inkişafına öz təsirini göstərdi. VIII əsrdən başlayaraq burada İslam memarlığı və İslam şəhər tikintisi üstünlük təşkil etməyə başladı. XI-XII əsrlərdə Azərbaycanda Şirvan-Abşeron və Naxçıvan memarlıq məktəbləri ilə yanaşı Qarabağ memarlıq məktəbi də geniş inkişaf etməyə başlayır. Qarabağ zonasında 2000-dən artıq müxtəlif tarixi və mədəni abidə qeydə alınmışdır ki, onların əksəriyyəti İslam memarlıq mədəniyyətinin nümunələridir.( Гаджиев, 2006) Qarabağda İslam dini abidələri ilə yanaşı alban xristian məbədlərinin tikintisi də davam edirdi. Bu baxımdan həmin xristian abidələr haqlı olaraq Azərbaycanın mədəni irsinin tərkib hissəsi sayılır.

XI-XV əsrlərdə Qarabağın əvvəlcə Səlcuqilər, Hülakilər, sonra isə Qaraqoyunlu və Ağqoyunlu Azərbaycan-Ttürk dövlətlərinin tərkibində olması Azərbaycanda türk dilinin ümumxalq danışıq dilinə çevrilməsinə gətirib çıxardı. Türk dili qonşu fars, gürcü və xüsusən erməni dillərinə də təsir göstərməyə başlayırdı (Гукасян, 1980, Севортян, 1971, Açaryan,1902). Məhz bu dövrlərdə bəhs edilən regionda türk etnik amili aparıcı amilə çevrilməyə başlamış, bu coğrafi ərazi "Qarabağ" adını (Azərbaycan türkcəsində "böyük bağ") daşımağa başlamışdır (Thomas de Waal, 2003). Tarixçi alimlər qədim dövrdən Qarabağ regionuna aid edilən "Arsak" sözünün mənasını türk dilində Ər-sak "igid", "sak kişisi" kimi olduğu qənaətinə gəlmişlər. Qarabağ ayrıca bəylərbəylik kimi XVI əsrin əvvəllərində yaranmış Azərbaycan Səfəvilər dövlətinin tərkibinə daxil idi (Ghereghlou, 2015). Osmanlıların 1593, 1727-ci illərdə burada apardıqları siyahıya almalar (Osmanlı dəftərləri) bölgə əhalisinin əksəriyyətinin Azərbaycan türkləri olduğunu təsdiq edir. Buradakı toponimlərin də əksəriyyəti Azərbaycan dilində idi (13). Qarabağ bölgəsi Nadir şahın imperiyasının süqutundan sonra yaranmış və Azərbaycanın müstəqil dövlətlərindən biri olan Qarabağ xanlığının (1747-1821) ərazisini təşkil edirdi. Pənahəli xan və İbrahimxəlil xan dövründə aparılmış islahatlar, fəal xarici siyasət, Nadir şah tərəfindən sürgün edilmiş Azərbaycan tayfalarının geri qaytarılması, separatçı məliklilkərin tabe etdirilməsi sayəsində Qarabağ xanlığı Cənubi Qafqazın ən güclü dövlətlərindən birinə çevrilmişdi. Məhz bu dövrdə Şuşa şəhərinin Qarabağın siyasi və mədəni mərkəzi kimi yüksəlişi dövrü başladı (Croissant, 1971, Шнирельман, 2003).

1805-ci ildə Rusiya qoşunlarının komandanı P.Sisianovla Qarabağ xanı İbrahimxəlil xan arasında bağlanmış Kürəkçay müqaviləsinə əsasən Qarabağ xanlığı Rus imperatorunun təbəəliyinə keçdi (http://www.hrono.ru ). Bu müqavilə müstəqil dövlət olan Qarabağ xanlığı ilə Rusiya hərbi komandanlığı arasında bağlanmışdı və müqavilənin mətnində heç ermənilərin adı belə çəkilmir. Qarabağ xanlığı çar Rusiyası tərəfindən işğal edildikdən sonra "Qarabağ" istilahı özünün ilkin inzibati-siyasi mahiyyətini itirərək coğrafi vahid kimi Yelizavetapol quberniyasının tərkibində 4 qəzaya – Şuşa, Zəngəzur, Cəbrayıl, Cavanşir qəzalarına bölünmüşdü. Cənubi Qafqaz Rusiyanın tərkibinə daxil edildikdən sonra çarizm Azərbaycanda özünə etnokonfessional dayaq yaratmaq üçün Türkiyədən və İrandan Şimali Azərbaycana köçürülmüş ermənilərin bir hissəsini keçmiş Qarabağ xanlığının ərazisində yerləşdirdi. 1836-cı ildə Rus sinodunun qərarı ilə Alban kilsəsi ləğv edildikdən sonra erməni millətçiləri Qarabağda albanların zəngin mənəvi, tarixi mədəni və memarlıq irsini də erməniləşdirməyə nail oldular. Lakin albanlar uzun müddət erməniləşdirilməyə qarşı mübarizə apardılar. Erməniləşdirilməyə məruz qalsalar da albanların etnik-dini yaddaşından onların öz tarixi kökləri ilə bağlı xatirələrin silib məhv etdirə bilmədilər (http://udi.az ). Mənşəcə alban olan filosof və din xadimi P.Florenski qeyd edirdi: "Qarabağ erməniləri əslində erməni deyil, xüsusi tayfadırlar. Qədimdə onlar alban adlanırdılar, onlar özlərinə məxsus dillərini və adətlərini saxlayıblar (Флоренский, 1992). Bu gün həm Qarabağın dağlıq hissəsində, həm də işğal olunmuş rayonların ərazilərində mövcud özünəməxsus Alban memarlığı məbədlərinin istisnasız olaraq hamısı (son yüz ildə tikilənlər istisna olmaqla) Alban dövrünün yadigardır.

1918-1920-ci illərdə Cənubi Qafqazda müstəqil respublikaların mövcudluğu zamanı "Qarabağ" toponimi yenidən inzibati-siyasi mahiyyət kəsb etməyə başladı. Qarabağın yuxarı dağlıq ərazilərinə iddialarını irəli sürən Ermənistanın daşnak rəhbərliyi rəsmi sənədlərində bu ərazini "Dağlıq Qarabağ" adlandıraraq artıq 100 ildən artıq davam edən eyni adlı münaqişənin əsasını qoydu. Daşnak Ermənistanın hərbi, siyasi-diplomatik cəhdlərinə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti bu bölgədə öz suverenliyini qoruyub saxlaya bildi. 1919-cu ilin 19 avqustunda Azərbaycan hökuməti ilə Qarabağ erməni milli şurası arasında bağlanmış sazişə görə Qarabağ erməniləri Azərbaycanın yurisdiksiyasını qəbul etməli oldular (Микаэлян, 1992). Lakin ermənilər Naxçıvanı, Zəngəzuru, Qarabağı ələ keçirmək üçün əlverişli fürsət gözləyirdilər.

Sovet hakimiyyəti illərində də ermənilər Qarabağ problemini yenidən gündəliyə gətirməyə nail oldular. Hətta Ermənistan Sovet hökuməti 1921-ci ilin mayında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında birtərəfli qərar çıxardı (Брутенц, 2005). 1923-cü il iyulun 7-də isə bolşevik Sovet hakimiyyəti Qarabağın yuxarı hissəsində yaşayan ermənilərə süni olaraq muxtariyyət hüququ verərək onlar üçün qondarma milli-inzibati ərazi vahidi — Dağlıq Qarabağ Muxtar Vilayəti yaratdı. Bununla da sonradan Azərbaycan-Ermənistan münasibətlərinin əsas məsələsinə çevrilmiş Dağlıq Qarabağ münaqişəsinin əsası qoyuldu. Sovet hökumətinin apardığı 70 il ərzində həyata keçirdiyi siyasət nəticəsində ermənilər Qarabağın dağlıq hissəsində — DQMV-də etnik-siyasi üstünlük qazanmağa nail oldular.

1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində ermənilərin Qarabağda əsassız torpaq iddiaları və SSRİ-nin dağılmasından sonra Ermənistanın silahlı təcavüzü Azərbaycanın 20 faiz torpaqlarının itirlməsinə səbəb olan müharibəyə çevrildi. 1992-ci ilin 26 fevralında erməni silahlı dəstələri Rusiyanın 366-cı alayının köməyi ilə Azərbaycanın Xocalı şəhərində soyqırımı törətdilər. Bu qırğın zamanı şəhər sakinlərindən 613 nəfər öldürülmüş, 421 nəfər yaralanmış, 1275 nəfər isə əsir götürülmüşdü (20). Ümumilikdə 1991-1994-cü illərdə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Qarabağ və onun ətrafındakı Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarının əraziləri işğal edilmiş, 20 min nəfərdən artıq azərbaycanlı həlak olmuş, 4866 nəfər itkin və əsir düşmüş, girov götürülmüşdü. Bu təcavüz nəticəsində 100 min nəfər azərbaycanlı yaralanmış, 50 min nəfər əlil olmuşdur. Hərbi təcavüz Azərbaycanın 900 yaşayış məntəqəsinin 130939 evin, 2389 sənaye və kənd təsərrüfatı obyektinin, 1025 təhsil və 798 səhiyyə ocağının, 1510 mədəniyyət müəssisəsinin dağıdılmasına səbəb olmuşdur. İlkin hesablamalara görə, Ermənistan Silahlı Qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan iqtisadiyyatına 300 milyard ABŞ dollarından çox ziyan dəymişdir (https://www.armenianvandalism.az ). İşğal olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus mədəniyyət obyektləri – muzeylər, kitabxanalar, mədəni–maarif müəssisələri amansızlıqla məhv edilmişdir. Ermənistanın işğal etdiyi ərazilərdə 547 memarliq abidəsi, o cümlədən 6 dünya, 393 ölkə və 149 yerli əhəmiyyətli memarliq abidəsi, 205 arxeoloji abidə, o cümlədən 7 dünya əhəmiyyətli, 403 tarixi-dini abidə, 22 muzey məhv edilmişdir (https://azerbaijan.az/ ). Ermənilər işğal etdikləri hər yerdə xalqımıza məxsus tarixi-mədəni və dini abidələri məhv edib və ya saxtakarlıqla özününküləşdirmişdilər. Azərbaycan-türk mənşəli toponimlərinin kütləvi şəkildə erməniləşdirilməsi də erməni vandalizminin digər formasıdır.

1992-ci ildə münaqişənin nizamlanması ilə bağlı xüsusi qrup — Minsk qrupu yaradılsa da bu təşkilat fəaliyyət göstərdiyi illərdə münaqişənin həlli istiqamətində heç bir əməli addım ata bilməmişdir. 1994-cü il mayın 12-də Rusiya, Qırğızıstan və MDB Parlament Assemnleyası vasitəçiliyi ilə Bişkekdə Azərbaycan və Ermənistan arasında atəşkəs haqqında saziş müqavilə bağlansa da bu müddət ərzində Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından münaqişənin həllinə nail olmaq mümkün olmamışdı. Azərbaycan dövlətinin apardığı fəal xarici siyasət sayəsində dünya birliyi, Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa Birliyi (AB), İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Avropa Şurası (AŞ), NATO, Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat (Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanı birləşdirən regional təşkilat.- GUAM) və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Dağlıq Qarabağı onun ayrılmaz hissəsi hesab edirlər. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Qarabağ münaqişəsi ilə bağlı 1993-cü il 30 aprel 822, 29 iyul 853, 14 oktyabr 874, 11 noyabr 884 saylı qətnamələrində Ermənistan qoşunlarının işğal edilmiş Azərbaycan torpaqlarından dərhal və qeyri-şərtsiz çıxarılmasını tələb etsə də bu tələblər yerinə yetirilməmişdir (https://2001-2009.state.gov ). 2008-ci ilin martında BMT Baş Məclisi 39 dövlətin dəstəyi ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət haqqında" qətnamə qəbul etmişdir. Qətnamədə "Azərbaycanýn bütün işğal olunmuş ərazilərindən erməni qüvvələrinin dərhal tam və qeyri-şərtsiz

çıxarılması” tələb olunurdu (https://www.refworld.org ). Lakin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Minsk qrupunun həmsədrləri olan Amerika Birləşmiş Ştatları (ABŞ), Rusiya və Fransa qətnamənin əleyhinə səs vermişlər. Əslində bu dövlətlərin münaqişəyə ikili standartlardan yanaşmaları, Ermənistanın təcavüzkar siyaətinə səssiz qalmaları ermənilərin 30 il Azərbaycan torpaqlarını işğalda saxlamağa imkan vermişdir. Ermənistan isə bu müddət ərzində status-kvonu saxlamaqla, işğal etdiyi Azərbaycan ərazilərində möhkəmlənməkdə, Azərbaycan əleyhinə təxribatlar törətməkdə davam edirdi. Belə təxribatlardan sonucusu 2020-ci ilin iyulunda Ermənistan-Azərbaycan sərhədinin Tovuz hissəsində baş vermişdi. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatına cavab olaraq əks-hücuma keçən Azərbaycan ordusu qısa müddət ərzində işğal edilmiş əraziləri, strateği əhəmiyyətli Şuşa hərənin azad etməklə beynəlxalq hüquqa əsaslanaraq öz ərazi bütövlüyünü təmin etməkdə israrlı olduğunu bütün dünyaya nümayiş etdirdi.

## 3. Qarabağın Iqtisadi və Turizm Potensialı

Azərbaycanın Qarabağ bölgəsi dünyanın ən qədim insan məskənlərindən, mədəniyyət ocaqlarından biridir. Əlverişli təbii-coğrafı şərait, şirin su qaynaqlarının, bitki və heyvanlar aləminin zənginliyi, Azıx mağarası kimi təbii mağaraların olması hələ qədim dövrlərdən burada ibtidai insanların məskən salmasına şərait yaratmışdır. Qarabağda Şuşa kimi qədim tarixə malik şəhər, Xocalı, Xankəndi, Xocavənd kimi qədim yaşayış məskənləri, Ağdam, Ağdərə, Hadrud və digər inkişaf etmiş rayonlar vardır.

Qarabağ və erməni işğalından azad olunmuş digər yeddi rayon müstəqil Azərbaycan Respublikasının tərkib hissəsi kimi iqtisadi inkişaf baxımından tarixən ölkəmizin digər regionları ilə inteqrativ əlaqələrə malik olub, müasir sənayeyə, çoxcəhətli kənd təsərrüfatına, geniş sosial struktura malik yüksək inkişaf etmiş iqtusadi regionlarından biri olmuşdur. 30 il öncəsində də bu bölgənin coğrafi mövqeyi, təbii sərvətləri və insan resursları Qarabağ iqtisadiyyatının inkişafında mühüm rol oynayıb. O vaxtlar burada yaradılmış nəqliyyat və infrastruktur şəraiti ilə yanaşı, mövcud olan təbii ehtiyatlar energetika, dağ-mədən sənayesi, kənd təsərrüfatı, emal sənayesi, meşə təsərrüfatı, balıqçılıq və turizm kimi sahələrdə mühüm layihələr həyata keçirməyə imkan verirdi (Məmmədov, 2010). 1988-ci ilədək, yəni SSRİ-nin çöküşünədək olan dövrdə Dağlıq Qarabağ iqtisadi rayonu məhz bu sərvətlər hesabına mühüm inkişaf göstəriciləri əldə etmiş və bu iqtisadi nəticələr birbaşa olaraq bölgədə məskunlaşmış əhalinin yaşayış səviyyəsində və məşğulluğunda özünü göstərmişdi. Sovet dövründə Qarabağ Azərbaycanın Azərbaycanın ümumi əhalisinin təxminən 2 faizini, ərazisinin 5 faizini təşkil edən Qarabağ respublikamızda istehsal olunan kənd təsərrüfatı məhsullarının 5 faizini, sənaye məhsullarının təxminən 3 faizini istehsal edirdi. Həmin dövrün statistikasına nəzər salsaq, burada bir sıra məhsulların istehsalında respublika əhəmiyyətli nəticələr əldə olunub. Tarixən Qarabağ əhalisinin mənimsədiyi məşğuliyyət növləri və toplanan təcrübə burada əsas rol oynayıb. Belə ki, təkcə kənd təsərrüfatı üzrə baxsaq, taxılçılıq, tərəvəzçilik, meyvəçilik, üzümçülük, pambıqçılıq və tütünçülüklə yanaşı ətlik və südlük heyvandarlıq məhsullarının istehsalında mühüm göstəriclərin əldə olunuduğunu görməkdəyik. Sovet dönəmində Azərbaycanda çox inkişaf etdirilən üzüm plantasiyaları Qarabağın da bütün rayonlarında, xüsusən, Fizuli və Cəbrayılda var idi. Həmçinin Qubadlı, laçın, Kəlbəcər və Zəngilanda təbii otlaqların zənginliyi heyvandarlığın da, inkişafına təkan vermişdir. Əlverişli təbii-iqlim şəraiti arıçılığın da inkişafına şərait yaradıb. Bölgədəki geniş yayılmış tut bağları ipəkşiliyin və baramaçılığın inkişafına səbəb olmuşdu. O dövrdə Qarabağın sənayesi, əsasən, yerli istehsal olan kənd təsərrüfatı xammalına əsaslanırdı. Sənayenin strukturunda o dövrün regional inkişaf prioritelərinə uyğun olaraq yüngül və yeyinti sənayesi aparıcı sahələr olmuşdu. Demək olar ki Qarabağın bütün rayonlarında, xüsusən Ağdam, Xankəndi, Hadrut və Şuşada şərabçılıq, müxtəlif meyvə-tərəvəz konserv sənayesi, unüyütmə, çörəkbişirmə, toxuculuq, tikiş, ipəkçilik, xalçaçılıq, ayaqqabı, gön-dəri sənayesi müəəsisələri fəaliyət göstərib, Şuşada unikal musuqi alətləri fabriki olub.

Eləcə də emal sənayesi və sənətkarlıqda, xüsusən dünyaca məşhur olan xalçaçılıqda Qarabağ adı hələ o dövrdə dünya markası halına gəlmişdi. Bütün bu və digər sahələrlə yanaşı Qarabağ özünün təkarolunmaz turizm ehtiyatları və kurort-sanatoriya müəssisələri, qorunan təbii-rekreasiya məkanları ilə səyahətçilərin də diqqət mərkəzində olub (Hüseynov, 2018).

Qarabağ turizm baxımından zəngin təbii ehtiyatlara və unkal iqlim şəraitinə malikdir (https://www.virtualkarabakh.az ). Ərazinin çox hissəsini Qarabağ silsiləsi tutur. Hər tərəfdən baxdıqda qala kimi yüksəklik mövqeyə malik olan Şuşa yaylası və onun ətrafındakı Daşaltı kanyonu ecazkar mənzərəyə malikdir. Qarabağın iqlimi də çox müxtəlifdir. Regionun ağətəyi ərazilərində quru subtropik, dağlıq ərazilərində isə mülayim dağ iqlimi vardır. Yağıntın miqdarı illki olaraq 300-800 mm. arasında dəyişir. İşğaldan öncə bölgədə suvarma və dəmyə əkinçiliyi, bağçılıq və heyvandarlıq yaxşı inkişaf etmişdi. Ərazidən bolsulu Tərtərçay, Xaçınçay, Qarqarçay, Köndələnçay, Qunıçay və digər kiçik çaylar axır. Tərtər çayı üzərindəki Sərsəng su anbarı suvarma və enerji üçün böyük əhəmiyyətə malikdir. Qarabağın ən mühüm təbii sərvətlərindən biri meşələrdir. Burada Azərbaycanın çox güclü meşə ehtiyatları vardır. Palıd, vələs, fısdıq meşələri ərazidə ağac emalı sənayesinin inkişaf etdirilməsi üçün əlverişlidir. İşgal dövündə ermənilər digər sərvətlərimiz kimi, Qarabağ meşələrindəki bu nadir və qiymətli ağac növlərini də talayırdılar. Qarabağın təbii sərvətləri içərisində Kəlbəcərin və Zəngilanın qızıl ehtiyatları, polimetal filiz yataqları, müxtəlif tikinti materialları, çox böyük ehtiyata malik olan mərmər yataqlarını, civə, əhəngdaşı, sement xammalı, qum, çmqıl və sair göstərmək olar ki, bütün bunlar da, işğal dövründə ermənilər tərəfindən talanmışdı (http://thelondonpost.net).

Dağlıq Qarabağm şəhər və rayonları arasında əlaqə əsasən avtomobil yolları vasitəsilə həyata keçirilirdi. Horadiz-Füzuli-Xocavənd-Ağdam, Ağdərə-Tərtər, Yevlax-Bərdə-Kəlbəcər, Bərdə-Ağdam-Şuşa-Laçın şose yolları yüklərin və sərnişinlərin daşındığı əsas marşrutlar olub. Bu və ya başqa şose yolları rayonların daxili hissələrini Ələt-Culfa və Yevlax-Ağdam-Xankəndi dəmiryolu ilə əlaqələndirir. Xankəndində aeroport var idi. Ərazidən Yevlax-Ağdam-Xankəndi-Laçın-Görüş-Naxçıvan qaz kəməri keçirdi. Təəssüflər olsun ki, xalqımızın zəhməti və dövlətimizin böyük vəsaiti hesabına yaradılmış infrastruktur işğal zamanı sistematik olaraq məhv edilmiş və qarət edilmişdir.

Şuşa şəhəri Azərbaycanın ən məşhur mədəniyyət mərkəzlərindən biridir. Bu şəhər təkrarsız gözəlliyə malik olmaqla həm də təbii qala formasındadır. Şuşa yaxınlığındakı Turşsu, Şırlan və digər mineral sulçox sayda turisti özünə cəlb edib. Eyni zamanda Şuşa şəhəri yaxınlığındakı İsa bulağı, Şuşalıların o zamankı Qarabağa gəlmiş turistlərin ən sevimli istirahət yeri olub. Azərbaycan musiqisinin beşiyi Şuşa böyük sənət ustaları Üzeyir Hacıbəyov və Bülbülün vətənidir. O zamanlar Şuşada məscid, diyarşünaslıq muzeyi, musiqi məktəbi, musiqi alətləri fabriki,pedaqoji institut, sanatoriyalar, turizm mərkəzi, böyük şair Vaqifin, Nəvvabın məzar abidələri, Şuşanın qala divarları, xan qızı Natəvanm, Mehmandarovun evi və bir sıra başqa abidələr vardı (Ismailov, 2017).

Müsiqi beşiyi Qarabağ özünün qonaqpərvərliyi ilə həmişə seçilən məkan olub. Qədim dövr və orta əsrlərdə Azərbaycana səyahət etmiş Türk, Avropa, rus və ərəb səyyahları qədim İpək yolu üzərindəki bu dilbər güşənin ecazkar təbiətindən yazmış, insanların qonaqpərvərliyindən dərin təəssüratlar almışlar (Məmmədov, Soltanova, Rəhimov, 2005). Qarabağın müasir ifadə ilə desək, bir turizm mərkəzi kimi tanınması isə hələ XIX əsrin ikinci yarısından başlayraq Azərbaycanın neft ölkəsi kimi inkişafı ilə buraya xarici kapitalın axınından başlayır. O zamandan başlayraq Cənubi Qafqazın görməli yerləri ilə tanış olmaq istəyən bu əcnəbilər üçün Qarabağın gözəlliyi də cazibə elementi olub. Sonrakı vaxtlarda, Azərbaycanda Sovet hakimiyyəti dövründə Qarabağ respublikamızın ən çox seçilən turizm destinasyialarından biri olub, ittifaq və xarici ölkə mənşəli turistlər üçün sevimli tanışlıq, istirahət, müalicə, ekoturizm və əyləncə məzmunlu turlara ev sahibliyi edib. Çox da uzaq olmayan bu tarixi dövrdə istər Şuşa, istərsə də bütün Qrabağ bölgəsində gəlmə turizm üzrə ciddi inkişaf nəticələri qeydə alınıb.

Hələ XX əsrin 30-cu illərində Şuşada kurort məqsədilə istirahət evi, daha sonrakı dövrlərdə panisonat və sanatoriya fəaliyyət göstərib. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, əfsanəvi “Cıdır düzü” buraya səyahətə gələnlərin sevimli yeri olub. Eləcə də Xankəndi, Ağdam, Kəlbəcər ərazilərində də turislərin mənalı asudə vaxt keçimələri üçün imkanlar var idi. Ağdamdakı çörək muzeyi, buradakı məscid turizm baxımından çox dəyərli olub. Bu dövrdə mövcud olan sosial-mədəni infrastruktur da o zamankı turistlərin tələbatına uyğun olaraq yaradılıb və bölgənin turizm-rekreasya potensialı onu beynəlxalq əhəmiyyətli bir səviyyədə tanıdıb. Ötən əsrin 70-80-ci illərində isə bütün Azərbaycanda olduğu kimi onun turizm incisi Qarabağda da turizmin inkişafı ən yüksək səviyyəyə çatıb, xeyli sayda kurort-sanatoriya, mədəniyyət müəssisələri, asudə vaxt mərkəzləri fəaliyyət göstərib, yerləşdirmə müəssisərində çox sayda yataq yerləri mövcud olub. Belə ki, 1987-ci ildə Azərbaycana xarici ölkələrdən gəlmiş 50 min, SSRİ-nin müxtəlif bölgələrindən gəlmiş 250 min

turistin və yerli turizm-ekskursiya bürolarının təşkil etdikləri turlara qatılan 2,5 milyon nəfər daxili turistin mühüm bir hissəsi məhz Qarabağda olub. Ancaq Ermənistanın 1988-ci ildən başlayan hərbi təcavüzü nəticəsində təkcə Qarabağda deyil, eyni zamanda buradan qaçqın salınmış insanların ölkəmizin kurort-sanatoriya müəssisələrində yerləşdirilməsi ilə bütün Azərbaycanda daxili və gəlmə turizmə ciddi zərərlər dəydi (Məmmədov, Soltanova, Rəhimov, 2005).

**4. Diskussiya. İşğal Sonrası Qarabağda Turizm**

İşğal sonrası Qarabağ iqtisadiyyatında turizmin yeri buranın təbii ehtiyatları, coğrafi mövqeyi, tarixi zənginlikləri və potensial nəqliyyat imkanları ilə əlaqədardır. Buna görə də Qarabağın zəngin təbii ehtiyatlarının və xalqımıza məxsus milli-mədəni mirasının turizm dövriyyəsinə cəlb olunması qarşıdakı dövrdə görüləcək mühüm işlərdən biri olacaq. 30 ilə yaxın doğma yurd həsrəti çəkən Qarabağ sakinlərinin, onların yaxın qohum-əqrabalarının, müxtəlif humanitar missiyalar həyata keçirən beynəlxalq təşkilatların nümayəndələrinin, dünyanın hər yerindən olan media ordusunun və bölgəyə yeni sərmayə yatırmaq üçün Azərbaycana gələcək investorların səyahət məsələləri digər işlərlə bərabər şəkildə həyata keçiriləcəkdir. Turizm növlərinə gəldikdə, Əvvələr, yəni sovet dönəmində Şuşa əsasən yay istirahət zonası olub, buradakı pansionat və fərdi evlərdə çox sayda şəhərli turislər yerləşirdi. Ancaq şübhəsiz, 8 noyabr — Şuşanın işğaldan azad olunması günü (https://www.trtworld.com ) tarixi turizm baxımından da xüsusi əhəmiyyət daşıyacaq. Bu tarixi gün ölkəmizdə fəayliyyət göstərən turoperatorlar üçün çox dəyərli və simvolik turzəflər hazırlamağa imkan verəcək. Belə turlara qatılan hər yaş təbəqəsindən və hər cür sosial qrupdan olan insanlar Azərbaycan Ordusunun keçdiyi zəfər yolunu bu dəfə turist kimi keçəcəklər. Bu marşrutun cazibə elementləri kimi insanları heyrətə salacaq təkcə təbiət və relyef gözəllikləri deyildir. Bakı-Şuşa istiqamətində ilk səfərə çıxanlar, xüsusən, diplomatlar (https://azertag.az ) və xarici media təmsilçiləri üçün belə səfərlər erməni vandalizminin əsl mahiyyətini göstərmək üçün xüsusi bir fürsət olacaq. Qarabağın 30 illik işğal dövrü ərzində hər yerdə dağıdılmış insan məskənlərini (https://www.aa.com.tr ), korlanmış ekosistemi (https://www.smh.com.au ), dağıdılmış məzarlıqları (https://www.azernews.az ) və eləcə də daş dövrünü xatırladan primitiv erməni həyat tərzini bütün bəşəriyyətə göstərmək belə tanışlıq turlarının əsas motivi olacaq, foto-video həvəskarları üçün yeni bir gizli dünya açılacaq. Qarabağın azadlığı uğrunda həllediçi döyüşlərin aparıldığı, Azərbaycan Ordusunun yüksək dəqiqliklə düşmənə öldürücü zərbələr endirdiyi nöqtələri görmək isə daha yaddaqalan olacaq. Bu marşrutlar Suqovuşandan Xankəndinə, işğaldan ilk azad olunmuş Cəbrayıldan Kəlbəcərədək çox geniş bir ərazidə çox zəngin informativ bir resursa sahib olacaq. Xarici jurnalistlər, eləcə də bütün əcnəbi turistlər işğaldan miras qalmış şəhər və kəndləri gördükcə bu onlarda ermənilərin gerçək xarakteri haqda ən real təsəvvür yaradacaq. Onda bütün dünya biləcək ki, faşizm ruhlu bu insanlar istədi vaxt sıx məskunlaşdıqları Los-Ancelos, Marsel, Beyrut, Rostov kimi şəhərlərdə də hər an belə izlər qoyub getməyə hazırdılar.

İşğal sonrası Qarabağda turizmin inkişafı hər şeydən əvvəl bu bölgənin iqtisadiyyatının diçəldilməsi və ölkəmizin digər yerlərində məskunlaşmış yerli insanların öz torpaqlarına qayıdışı üçün üçün mühüm faktorlardan biri olacaq. Turizmin çox ciddi sosial-humanitar məzmunlu funksiyaları bunu etməyə imkan verir. Belə ki, turistlərə təklif olunacaq xidmətlər diğər sahələrə nisbətən öz xərcini daha tez çıxardığından bu, bölgəyə işçi qüvvəsi axınına səbəb olacaqdır. Qarabağda həm ekorturizm, həm mədəni tanışlıq, həm də müalicə turizmi üçün geniş imkanlar olduğundan burada turistlərə təklif olunana zərf xidmətlərin də çeşidi və məzmunu olduqca müxtəlif olacaq. Laçın, Kəlbəcərin unikal relyef müxtəlfliyi burada həm yay, həm də qış turizminin perspektivlərini artırır. Turist marağı baxımından dünyada çox populyar olan və Azərbaycan mifologiyasında geniş yer tutan səhləb bitkisi Xarı-bülbülün Şuşada canlı olaraq izlənilməsi (https://www.hurriyet.com.tr ) Qarabağın turizm cazibədarlığını xüsusi olaraq artırır. Qarabağ bölgəsi Azərbaycanın bir çox yerlərindən fərqli olaraq qışı və yayı mülayim keçən, yaşıllıqlarla zəngin olan bir ərazidir. Belə bir unikal təbii-iqlim xüsusiyyətləri ərazidə aqroturizmin və kənd-yaşıl turizminin də inkişafı deməkdir. Erməni işğaından sonra burada kənd infrastrukturunu sürətlə yenilənməsi, normal həyat üçün bütün zəruri şəraitin yaradılması şəhərli turstlər üçün bölgə kəndlərini sevimli istirahət məkanı edəcək.

Qarabağ marşrutu üzrə səyahət edən əcnəbi və yerli turistlər çıxış nöqtəsi kimi paytaxt Bakı və Azərbaycanın ikinci böyük şəhəri Gəncədən yola çıxa bilərlər. Bakıdan gələn turistləri Xankəndi və Şuşayadək təxminən 400 kilometr, Gəncədən isə təxminən 100 kilometrlik bir məsafə gözləyir. Yevlax, Bərdə və Ağdam şəhərlərindən keçməklə bu yolu normal turizm marşrutu kimi yarım gün ərzində keçmək olar. Ancaq qeyd etmək lazımdır ki, Şuşaya çatmaq üçün turistlər cənubdan Əhmədbəyli–Füzuli, yaxud Xudafərin-Qubadlı-Laçın, şimaldan isə Göygöl-Kəlbəcər istiqamətlərindən hərəkət edə bilərlər. 2020-ci ilin 27 sentyabrınadək mövcud olmuş təmas xəttinə qədərki Azərbaycanın nəzarətində olan ərazilərdə mövcud olan müasir yol-nəqliyyat infrastrukuru, insanlara göstərilən sosial-mədəni xidmətlər, bütövlükdə, ölkəmizin sosial-iqtisadi inkişafının bir göstəricsi kimi iri şəhərlərdən heç də fərqlənmir. Bunları müxtəlif vaxtlarda həmin yerlərə səfər etmiş jurnalistlərin, yaxud beynəlxalq müşahidəçilərin yol qeydlərində də görmək olar.

Qarabağda turizmin gələcək inkişafının iqtisadiyyata çoxaldıcı effektindən əlavə çox mühüm siyasi əhəmiyyəti də vardır. Bu gün artıq Şuşa şəhərinin (http://mct.gov.az ) və Xudafərin körpüsünün (https://sherg.az ) UNESCO-nun Mədəni İrs Siyahısına salınması üçün işlərə başlanılıb. Bütün bunlar 30 il ərzində ermənilərin təkcə bu bölgə üçün deyil, bütün Cənubi-Qafqaz bölgəsi üçün törətdikləri riskli bölgə imicinin də qırılması deməkdir. Belə ki, Avropadan Bakıya oradan da Naxçıvana uçmaq istəyən əcnəbi turistlər hava yolunun erməni işğalı altındakı Qarabağ üzərindən keçmədiyinə əmin olmaq istəyirdilər. Yəni, bütün Cənubi-Qafqazın təhlükəsizlik imici də işğalçı ölkə ucbatından zərər görmüşdü. Qarabağın işğalına görə mövcud olmuş riskli bölgə anlayışı isə təkcə ölkəmzdə deyil bütün bölgədə həm getmə, həm də gəlmə turizmə çox ciddi zərərlər vururdu. Bu gün hələ də cəzasını çəkdikləri sərsəm xəyallarından əl çəkməyib, Kəlbəcərdən geri çəkilərkən hər şeyə tamah salan Sarkis kimi digər məğlub ermənilər (https://www.youtube.com ) bilməlidir ki, onların işğal etdiyi Qarabağda taladıqları Azərbaycanın qızılı, meşə sərvətləri, inşaat materialları kimi çox dəyərli turizm ehtiyatlarımız da olub. Buna görə də, Azərbaycanın Qarabağda qısa müddətdə turizmdən əldə edəcəyi müsbət naticələr ölkəmizin turizm ehtiyatlarına, turizm sənayesinə və ümumilikdə iqtisadiyyatımıza vurulmuş zərərlərə görə Ermənistanın ödəməli olduğu maddi təzminatın daha tutarlı bir arqumenti olacaq. 2019-cu ilin nəticələrinə əsasən, Azərbaycana gəlmiş təxminən 2,4 milyon əcnəbi turistin ölkə iqtisadiyyatına qazandırdığı təxminən 2,6 milyard ABŞ dolları həcmində gəlir (https://www.e-unwto.org ), bu baxımdan Qarabağın işğalı nəticəsində itirdiymizin gəlirlərin səviyyəsindən xəbər verir.

## SONUC

Turizm sülh və sabitliyin bəhrəsi, eyni zamanda rahat yaşayışın mühüm faktorlarındandır. Buna görə də Qarabağın azadlığa qovuşması XXI əsrin ilk mühüm hadısəsi kimi tarixə keçdisə, bu torpaqda turizmin inkişafı da bu bölgədə hamının arzu etdiyi humanitar inkişaf üçün mühüm töhfə olacaq. 30 ilə yaxın uzun bir müddət ərzində terror və təhlükə mənbəyi olmuş ərazidə turizmin inkişafının sosial-iqtisadi və mədəni həyata, o cümlədən beynəlxalq münasibətlərə də töhfə verməsi gözlənilir. Bunları aşağıdakı kimi göstərmək olar:

- İşğal sonrası Qarabağda turizmin inkişafı bütün Cənubi-Qafqaz bölgəsi üçün uzunmuddətli sülhün təminatçısı ola bilər;
- Turizm infrastrukturu dağıdılmış Qarabağın yenidən inkişafı üçün çoxaldıcı effekt göstərə blər;
- Qarabağda turizmin inkişafı burada dağıdılmış maddi-mədəni mirasın bərpası üçün əsas vasitələrdən biri olacaq;
- Qarabağda turizmin inkişafı Azərbaycanın qeyri-neft sektoruna mühüm töhfə olacaq;
- Qarabağda turizmin inkişafı yeni nəqliyyat və kommunikasiya xətlərinin inşasına, bu da öz növbəsində Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə birləşdirilməsindən sonra yeni turizm marşrutlarının yaradılmasına imkan yaradacaq;
- Qarabağda turizmin inkişafı Ermənistanın bütün Cənubi-Qafqaz bölgəsi üçün formalaşdırdıqları riskli bölgə qorxusunu aradan qaldırmağa çox güclü töhfə verəcək;
- Qarabağda turizmin inkişafı işğal dövründə Azərbaycanın uğradığı maddi və mənəvi zərərlərin əvəzinə təzminat ödənilməsi üçün çox ciddi arqument olacaq;

- Ermənilərin mövcud məğlubiyyətlə barışmayacaqları, yeni bir fürsət yarandıqda yenidən terror və dağıntı əməllərinə başlayacaqları ehtimalının hər zaman böyük olduğunu bilərək, Qarabağda turizmin inkişafının gələcəkdə bütün belə meyillərə qarşı çox güclü humanitar sipər olacağını düşünmək olar.

## TƏŞƏKKÜRLƏR

Məqalə müəllifləri ideyanın ərsəyə gəlməsindəki motivasiya dəstəyinə görə Azərbaycanda fəaliyyət göstərən Müstəqil İnformasiya Agentliyinə https://mia.az/ təşəkkür edirlər.

## ƏDƏBIYYAT


Andrew Korybko. The significance of the Nagorno-Karabakh peace deal. https://news.cgtn.com/news/2020-11-11/The-significance-of-the-Nagorno-Karabakh-peace-deal-Vk8eCdxSrm/index.htmlStatement by the President of the Republic of Azerbaijan, Prime Minister of the Republic of Armenia and President of the Russian Federation. https://en.president.az/articles/45923/print

Акты собранные Кавказскою Археографическою комиссиею. Том II. Тифлис, 1868 г., с. 705 http://www.hrono.ru/dokum/1800dok/18050514kara.htmlArmenian Vandalizm: Azerbaijani Monuments in Captivity. General information https://www.armenianvandalism.az/en_general.html

Armenians take absolutely everything with them, even toilet bowls: BBC report from Kalbajar. https://www.youtube.com/watch?v=MAe_1cA_jPc&feature=youtu.be

Armenians completely destroy cemetery in Fuzuli district. https://www.azernews.az/karabakh/172934.html

Bakı: "Mütərcim", 2002. - 512 s. https://ebooks.azlibnet.az/book-DnQxaJNW.html

Brief information on material and moral damage caused to Azerbaijan culture as a result of the Armenia-Azerbaijan conflict https://azerbaijan.az/ru/related-information/127

Chris Devonshire-Ellis. Nagorno-Karabakh Resolution Will Give Turkey Direct Access To Azerbaijan. https://www.silkroadbriefing.com/news/2020/11/16/nagorno-karabakh-resolution-will-give-turkey-direct-access-to-azerbaijan/David Hambling. The ‘Magic Bullet’ Drones Behind Azerbaijan’s Victory Over Armenia. https://www.forbes.com/sites/davidhambling/2020/11/10/the-magic-bullet-drones-behind--azerbaijans-victory-over-armenia/?sh=5982e4c45e57

D.Y. Ismailov. History of Azerbaijan, AzMİU NPM, Baku, 2017, p.p.352 http://anl.az/el/Kitab/2018/02/cd/i-44365.pdf

Məmmədov J.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası (dərs vəsaiti), Azərbayjan dilində. Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 17 noyabr 2020. https://president.az/articles/46989

Azerbaijan: Armenians turned Aghdam into ruined city. https://www.aa.com.tr/en/azerbaijan-front-line/azerbaijan-armenians-turned-aghdam-into-ruined-city/2051825

Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, Bakı, 2000, s. 8-22

Hâr-ı Bülbül çiçeği nedir? Sadece Şuşa'da yetişiyor! https://www.hurriyet.com.tr/gundem/har-i-bulbul-cicegi-nedir-sadece-susada-yetisiyor-41657341

Нагорный Карабах в 1918-1923 гг.: Сборник документов и материалов / Отв. Ред. В.А.Микаэлян. Ереван: АН Армении, 1992, с.323-326

Брутенц К.Н. Несбывшееся. Неранодушные заметки о перестройке, М., Международные отношения, 2005, с.335

Xocalı-1992, Bakı, 2014, s.43.

Resolution 822 (30 April 1993), Resolution 853 (29 July 1993), Resolution 874 (14 October 1993), Resolution 884 (12 November 1993) // UN Security Council Resolutions on Nagorno-Karabakh; Statement of the Co-Chairs of the OSCE Minsk Group // OSCE, 17.03.2008; General Assembly adopts resolution reaffirming territorial integrity of Azerbaijan, demanding withdrawal of all Armenian forces // UN, 14.03.2008 https://2001-2009.state.gov/p/eur/rls/or/13508.htm

Jim Heintz. 'Ecological terror': Azerbaijan delays takeover, Armenians torch homes. https://www.smh.com.au/world/asia/ecological-terror-azerbaijan-delays-takeover-denounces-fleeing-armenians-20201116-p56eu6.html

Qarabağ təbiəti https://www.virtualkarabakh.az/az/post-item/26/45/qarabag-tebieti.html Nazim Məmmədov. Azərbaycan SSR Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixi. ( XX əsrin 20-90-cı illəri). Bakı, «Təhsil», 2010, 200 səh.

Khankishiyeva Ellada. Azerbaijani Gold's Day light Robbery by Armenia in occupied territories. http://thelondonpost.net/azerbaijani-golds-day-light-robbery-armenia-occupied-territories/Resolution adopted by the General Assembly on 14 March 2008 [without reference to a Main Committee (A/62/L.42)] 62/243. The situation in the occupied territories of Azerbaijan Resolution adopted by the General Assembly on 14 March 2008 [without reference to a Main Committee (A/62/L.42)] 62/243. The situation in the occupied territories of Azerbaijan. https://www.refworld.org/pdfid/4821b6c62.pdf

Kioumars Ghereghlou. Cashing in on land and privelege for the welfare of the shah: monetisation of tiyul in ealy Safavid Iran and Eastern Anatolia// Acta Orientalia Academiae Scientiarum Hung, 2015, T. Volume 68,№ 1, p. 87—141

Минорский В.Ф. История Ширвана и Дербенда. М, Издательство восточной литературы. 1963, с. 28; Орбели И.А. Избранные труды, Ереван, 1963, с.149-155, 358; Еремян С. Т.Экономика и социальный строй Албании III—VII вв. // Очерки истории СССР III—IX вв. М.: Изд-во АН СССР, 1958. С. 303—310; Новосельцев А. П.К вопросу о политической границе Армении и Кавказской Албании в античный период// Кавказ и Византия: Сб.Ер.: Наука, 1979, № I., с. 10—18

Michael P. Croissant, The Armenia-Azerbaijan conflict: causes and implications, 1971, p.11; Шнирельман В.А. Войны памяти: мифы, идентичность и политика в Закавказье, М., Академкнига, 2003, с.200

Мобили Р.Б. Албанская церковь и армянская фальсификация http://udi.az/articles/0009-2.html

Флоренский П.А. «Детям моим. Воспоминанья прошлых дней. Генологические исследования. Из Соловецких писем. Завещание", Москва, 1992, с. 136-137; МобилиР.Б.. Албанская церковь и армянская фальсификация http://udi.az/articles/0009-2.html

Nagorno-Karabakh conflict: Violence inside Armenian parliament as protesters denounce ceasefire. https://news.sky.com/story/nagorno-karabakh-conflict-armenia-and-azerbaijan-sign-agreement-to-end-military-conflict-12128878

Occupied Nagorno-Karabakh: Azerbaijan retakes Shusha from Armenian forces. https://www.trtworld.com/asia/occupied-nagorno-karabakh-azerbaijan-retakes-shusha-from-armenian-forces-41266

Representatives of diplomatic corps in Azerbaijan visit Fuzuli district to see atrocities committed by Armenian army https://azertag.az/en/xeber/Representatives_of_diplomatic_corps_in_Azerbaijan_visit_Fuzuli_district_to_see_atrocities_committed_by_Armenian_army_VIDEO-1648277

Гаджиев Г. Средневековые памятники Карабаха. Журнал Ирс / Наследие, 2006, № 6 (24),с.40-41

Гукасян В. Об азербайджано-грузинскихи языковых контактах // Советская тюркология, 1980, №4, с.25; Севортян Э. Тюркизмы у ранних армянских писателей // Структура и история тюркских языков, М: Наука, 1971, с.264-275; Açaryan X. Türk dilinin erməni dilinə təsiri və ermənilərin türk dilindən götürdükləri sözlər, Erivan, 1902 (erməni dilində)

The battle for Shusha: the cauldron of generational pain at the heart of the Nagorno-Karabakh war. https://neweasterneurope.eu/2020/11/12/the-battle-for-shusha-the-cauldron-of-generational-pain-at-the-heart-of-the-nagorno-karabakh-war/

Thomas de Waal. Black Garden. Armenia and Azerbaijan through Peace and War. NEW YORK UNIVERSITY PRESS New York and London, 2003

Şuşanın Tarixi Mərkəzi Dünya irsi elan edilməsinə layiqdir. http://mct.gov.az/az/umumi-xeberler/13313

"Xudafərin körpüsü YUNESKO-nun beynəlxalq irs siyahısına daxil edilsin!" https://sherg.az/x%C9%99b%C9%99r/142496

UNWTO World Tourism Barometer and Statistical Annex, October 2020 https://www.e-unwto.org/doi/epdf/10.18111/wtobarometereng.2020.18.1.6

Yunis Hüseynov. QARABAĞ. Bakı, 2018, – 336 səh.

## THE EXTENDED REVIEW

After a 44-day counter-offensive operation on November 10, 2020, the liberation of Karabakh from Armenian occupation it migrated from the terrorist dens into a peace and new socio-economic development throughout the South Caucasus. The capitulation of Armenia as a result of enforcement by the army of Azerbaijan the expected normal life in Karabakh also will impact the tourism sector flourishing in this tourism most region. The Karabakh region is the most available place for tourism not only in Azerbaijan, but also in the entire South Caucasus. The nature, historical and cultural richness of this wealthy place made a significant contribution to tourism in the former Soviet Union respectively. No secret that many tourists used to visit Shusha, Kalbajar and Aghdam every year. Especially specific climate changes in these areas have a great resort importance. Shusha is the constant ancient cultural center of Azerbaijan. Its fame was known in Azerbaijan and far away.

But, the occupation of Karabakh by Armenia for almost 30 years has seriously damaged not only single tourism but all fields indeed. Armenians destroyed all material and cultural monuments, tourism infrastructure, cultural establishments and even they dared to changed the toponims directly mode belonging to the Azerbaijani people, and consciously committed vandalism.

Karabakh becoming the dens of the occupied territory has also damaged the tourism image of the entire region.

The crush of the Armenian occupation of Karabakh opens a new stage in the development of all spheres of socio-economic life, including tourism. The development of tourism in Karabakh is an important tool in returning the possible normal life in the region. The development of tourism in Karabakh after the occupation will be one of the most important factors for the revival of the region's economy and at the same time all local people inhabited in different parts of our country gained the opportunity to make comeback to their hearthlands respectively. It also will enable to invest a great amount of cash to different infrastructure development.

First of all, Karabakh residents, their close relatives, representatives of international organizations carrying out various humanitarian missions, the mass media from all over the world and some people eagering to invest capital to the desired branches will be able to come to Azerbaijan and travel all those ruined territories by Armenians.

Tourism will also be an opportunity to show the world what has happened during the past 30-year occupation of Karabakh. As Karabakh has a wide range of opportunities for ecotourism, cultural tourism and medical tourism, the range and content of package services offered to tourists will be very different and also inclusive for everyone. The unique landscape diversity of Lachin and Kalbajar increases the prospects of both summer and winter tourism here.

On the Karabakh route, tourists will be able travel about 400 kilometers from Baku to Khankendi and Shusha, and about 100 kilometers from Ganja, Ahmadbeyli-Fuzuli in the south or Khudaferin-Gubadli-Lachin, and Goygol-Kalbajar in the north.

In addition to the impact on the economy, the future development of tourism in Karabakh has a very important political significance. In the future, tourism is important in terms of including the city of Shusha and the Khudafarin Bridge in the UNESCO Cultural Heritage List. It also means breaking the image of a risky region to have been created by Armenians for the entire South Caucasus region.

The positive results of tourism in Karabakh in the short term will be a more convincing argument for the material compensation that Armenia is obliged pay for the damage caused to Azerbaijan's tourism resources, tourism industry and the economy in general.

As a result, with the liberation of Karabakh, the development of tourism here is expected to be a guarantor of long-term lasting peace and safety.

**IN ADDITION:**

- The development of tourism in post-occupation Karabakh can be a guarantee of long-term peace for the entire South Caucasus region;
- Tourism infrastructure can have a multiplier effect on the redevelopment of destroyed Karabakh;
- The development of tourism in Karabakh will be one of the main tools for the restoration of the destroyed material and cultural heritage here;
- The development of tourism in Karabakh will be an important contribution to Azerbaijan's non-oil sector;
- The development of tourism in Karabakh will allow the construction of new transport and communication lines, which in turn will create new tourist routes after the unification of the Nakhchivan Autonomous Republic with the main part of Azerbaijan;
- The development of tourism in Karabakh will make a strong contribution to overcoming the fears of the risky region that Armenia has formed for the entire South Caucasus region;
- The development of tourism in Karabakh will be a very serious argument compensation claim for the material and moral damage that Azerbaijan suffered during the occupation;
- Knowing the expectation that Armenians will not reconcile with the current defeat and resume acts of terror and destruction when a new opportunity arises, we can assume that the development of tourism in Karabakh will be a very strong humanitarian shield against all such bad tendencies in the future.